# Kiçikyaşlı məktəblilərin nitqindəki nöqsanlar və onların xarakteri

**Səidə Maarif qızı Əliyeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*
**E-mail:** saida.eduprimary@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Rəhimov,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** nitq, dil, hərf, səs, cümlə, ifadə, öyrənən
**Ключевые слова:** речь, язык, буква, звук, предложение, вырожение, ученик
**Key words:** speech, language, letter, sound, sentence, expression, learner

Uşaqlar iki-üç yaş arasında dil açırlar. Onlar ilkin olaraq sözləri eşitsə də, əsasən onları səs kimi anlayırlar. Sonralar ailədə, ətraf mühitdə, ictimai yerlərdə sözləri, ifadələri mənimsəyir, tədricən səsdə söz, sözdən ifadə və cümlələr qurmalı olurlar. Tədricən Azərbaycan danışıq dilini ilkin, sadə şəkildə hiss etmə, anlama və başa düşmənin köməyi ilə öyrənirlər. Məktəbə ilk qədəm qoyduqdan sonra bu işlər tədricən sistemli və müntəzəm şəkildə inkişaf etdirimәlidir.

I sinifdə öyrənənlər səs və hərf, sait və samit, heca, söz və cümlə üzrə dilin səs kompleksi haqqında ilkin məlumata yiyələnir.

Araşdırmaların təhlili göstərdi ki, ibtidai siniflərdə şifahi nitqin inkişafında işin sistemli və məzmunlu təşkili üçün dərs ilinin başlanğıcında öyrənənlərin şifahi nitqinin xüsusiyyətləri (ədəbi tələffüzü, leksik, qrammatik-üslubi və məntiqi cəhətləri, əhatəliliyi və həcmi) dəqiq öyrənilməlidir. Bu məqsədlə respublikanın müxtəlif zonalarında (Bakı, Gəncə, Şəmkir, Ucar, Göyçay və s.) şəhər və kənd məktəblərinin I siniflərində 730 öyrənənin şifahi nitqi üzərində tədqiqat aparıldı.

Araşdırmalar nəticəsində tələffüzlə bağlı uşaqların şifahi nitqinin xüsusiyyətləri təqribən belə oldu:

— fizioloji dil qüsurlarına yol verməleri:
— tələffüzdə ləhcələrdən istifadə;
— formaca bənzər sözlərin mənasını və nitq ritmini duymamaları;
— yerli dialekt və şivələrin çoxluğu;
— uzanan və uzanmayan saitlərin arasındakı fərqləri ayıra bilməmələri;
— qoşasamitli və qoşasaitli sözlərdə səslərdən birinin udulması;
— söz sonunda kar və cingiltili samitlərin qarışdırılması və s.

Aparılan müşahidələr və tədqiqatlar göstərir ki, uşaqlar məktəbə müxtəlif ailələrdən, müxtəlif ailə şəraitindən və müxtəlif nitq mühitdən gəldiklərindən nitqlərində müxtəlif xarakterli nöqsanlara yol verirlər. Bu problemi həll etmək və tədqiqata elmi istiqamət vermək məqsədi ilə respublikanın müxtəlif regionlarında (şəhər və kənd məktəblərində) uşaqların fikri ifadələrini müəyyənləşdirməyə səy göstərdik. Əvvəl Bakı şəhəri 20 və 132 saylı, Ucar rayon Qazyan kənd 2 və Abşeron rayon Saray kənd 1 saylı məktəbləri tədqiqat obyekti kimi seçildi. Tədqiqatın gedişində sadə tək əşyalı, seriya və süjetli şəkillərdən, nağıllardan, hekayələrdən, uşaqların həyatı təcrübələrindən, kiçikyaşlılar üçün çəkilən kinofilmlərdən və s. materiallardan istifadə olundu. Qarşıya qoyduğumuz məqsədə uyğun olaraq nitq nöqsanlarını xarakterinə görə aşağıdakı istiqamətlərdə təhlil etməli olduq:

Tələffüz xarakterli nöqsanları;
Leksik xarakterli nöqsanlar;
Qrammatik-üslubi səhvlər;
Məntiqi çatışmazlıqlar;
Nitqin əhatəli olmaması və həcminin kiçikliyi;

**Tələffüz xarakterli nöqsanlar:**

Tələffüz fonetik hadisədir. Burada bir çox fizioloji, psixoloji cəhətlərlə yanaşı nitqin səs kompleksi, səslərin tələffüzü, eşitmə analizatorlar, danışıq səslərinin birləşmələri və s. üzrə faktorlar əhatə olunur. Sözlərin səs tərkibi ortaya çıxır. Doğrudur, öyrənənlər təbii nitqlərində sözlərin tərkibində işlənən səsləri nəzərə almadan fikirlərini ifadə etməli olurlar. Əslində bu onlar üçün o qədər də əhəmiyyətli sayılmır. Hansı ki, nitqdə səslərinin aydınlığı və dəqiqliyi və normal eşitmə qabiliyyəti böyük-kiçikliyindən asılı olmayaraq başlıca şərtdir.

Bu da hər şeydən əvvəl ailədə və uşaq bağçasında məktəbə gedəcək uşaqların nitqinin inkişafı üzərində valideynlərin və müəllim-tərbiyəçi müntəzəm və sistemli iş aparmaması ilə bağlıdır. İkinci halda isə bu sahədəki işlərin elmi cəhətdən düzgün təşkil edilməməsi ilə əlaqədar. Müntəzəm müşahidələr göstərir ki, məktəbə qədəm qoyacaq uşaqlar aşağıdakı fonetik nöqsanlara yol verirlər.

— Bir qrup səslərin qarışdırılması;
— Sözlərin hissələrinin müəyyənləşdirilməsi;
— Tələffüzdə fiziki və eşitmə analizatorlarındakı qüsurlar;
— İntonasiyanın gözlənilməsi;
— Müxtəlif səs çalarlarının qarışdırılması;
— K-nın ğ-ya, k-ya çevrilməsində biliyə yiyələnməmələri;
— Sözlərin səs tərkibinin açılmaması;
— Sözlərdə fərqli səsin tutulması və s.

**a) Şifahi nitqdəki leksik nöqsanlar.** Uşaqların fikirlərinin şifahi ifadə etmələrinin aydınlığı, başa düşülənliyi onların lüğət ehtiyatının zənginliyindən, fəallığından asılıdır. Ona görə də ilk növbədə məktəbə qədəm qoyan uşaqlarının nitqinin leksik xüsusiyyətlərini öyrənmək üzrə araşdırmalara cəhd göstərdik. Bu məqsədlə uşaqlara "Tülkü və hacıleylək" nağılı və H. Zeynalovanın "Günəbaxanlar" hekayəsi təqdim olundu. Nağıl və hekayə uşaqlara oxundu. Onlara məzmunu açmağa xidmət edən bir neçə suallar verildi. Sonra uşaqlardan məzmunu danışma tələb olundu.

Bu araşdırmalar məktəbə qədəm qoyan uşaqlarını şifahi nitqindəki leksik nöqsanları aşağıdakı kimi müəyyənləşdirməyə imkan verdi:

— Nitqdə dialektizmlərin çoxluğu;
— Nitqdə konkret sözə əsaslanılması;
— Nitqdə tüfeyli söz və ifadələrin işlənməsi;
— Sözləri sinonimləri ilə dəqiq mənada əvəz edə bilməmələri;
— Sözlərin məcazi mənalarından istifadə edə bilməmələri;
— Uşaqların nitqində sifətlərdən lazımınca istifadə edə bilməmələri.

**b) Qrammatik-üslubi nöqsanlar.** İnsanın fikirləri özünün məntiqi, məzmunlu və dolğun ifadəsini qrammatik və üslubi cəhətdən düzgün tərtib olunmuş cümlələrdə tapır. Cümlələr düzgün tərtib olunduqda fikir də aydın ahəngdar və dəqiq meydana çıxır. Ona görə də altıyaşlıların monoloji nitqinin qrammatik tərkibinin, üslubi xüsusiyyətlərinin öyrənilib qeydə alınması vacibdir. Bu məqsədlə "Tülkü və hacıleylək" və H. Zeynalovanın "Günəbaxanlar" hekayəsinin məzmunu 730 uşaqdan soruşuldu.

Deyilənlər əsasında kiçik yaşlı məktəblilərin şifahi nitqinin qrammatik-üslubi nöqsanlarını belə ümumiləşdirmək olar:

— Cümlədə mübtəda və xəbərin şəxsə və kəmiyyətə görə uzlaşmaması;
— Sözlərin cümlədə düzgün sıralanmaması;
— Cümlədə sözlərin yersiz təkrarlanması;
— Felin zamanlarından düzgün istifadə olunmaması;
— Cümlə üzvlərindən birinin buraxılmaması;
— Cümlədə artıq sözlərin işlənməsi;
— Nitqdə mürəkkəb cümlələrdən istifadə olunmaması;
— Əvəzliklərin yerində işlənməməsi;
— Bağlayıcılardan, həmcins üzvlər və mürəkkəb cümlələrdən düzgün istifadə olunmaması.

**Şifahi nitqdəki məntiqi qüsurlar.** Monoloji nitqin əsas xüsusiyyətlərindən biri onun məntiqi cəhətidir. Müşahidələr göstərir ki, hər bir altı yaşlı uşağın nitqinin özünəməxsus məntiqi xüsusiyyətləri olur. Bunu tədqiq etmək məqsədilə "Tülkü və hacıleylək" və H. Zeynalovanın "Günabaxanlar" mətnlərinin məzmunu 730 uşaqdan xəbər alındı.

Ümumiyyətlə, altıyaşlıların şifahi nitqin məntiq xüsusiyyətləri özünü aşağıdakı kimi göstərdi:

1. Ayrı-ayrı cümlələr, faktlar və hadisələr arasında məntiqi əlaqənin yaradılmaması.
2. Eyni fakt və hadisəyə təkrar (yersiz) qayıdılması.
3. Başlıca məsələni ikinci dərəcəlidən ayıra bilməmək.
4. Məntiqi vurğunun yerinə düşməməsi.
5. Fikrini sübuta yetirə bilməmək.
6. Zaman, səbəb və nəticə əlaqələrini gözləyə bilməmək.
7. Hadisənin dinamik inkişafını başa düşməmək və ya izləyə bilməmək.
8. Təbiət hadisələri arasındakı qanunauyğunluğu, ardıcıllığı başa düşməmək.

**Şifahi nitqin əhatəliliyi və həcmi.**

Şifahi nitqin zənginliyini, ahəngdarlığını, məna və dolğunluğunu təmin edən ən mühüm cəhətlərdən biri də onun əhatəliyi və həcmi məsələsidir. Nitqin dəqiqliyi, həcmi təsvir olunacaq əşya və hadisə haqqında təsəvvürlərin genişliyi, dəqiqliyi və səlisliyi ilə bağlıdır. Altıyaşlıların əşya və hadisələr haqqında təsəvvürlərinin zəifliyi, onların müxtəlif cəhətdən yanaşma qabiliyyətlərinin hələ lazım səviyyədə formalaşmaması dolğun, mənalı hekayələr qurmağa imkan vermir.

Altıyaşlıların monoloji nitqini müşahidə edərək əhatəlilik və həcm baxımından xüsusiyyətləri belə müəyyənləşdirdik:

— Əsas fikrin unudulması;
— Məzmunun ətraflı açılmaması;
— Artıq fikirlərə yol verilməsi və danışılması lazım gəlməyən məsələlərdən bəhs olunması;
— Fikrin yığcam ifadə olunması;
— Hekayənin sonunun tamamlanmaması, yəni yarımçıq nağıl edilməsi.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi dərsliklərdə və digər tədris vəsaitlərində əsas prinsip kimi verilsə də bu sahədə müəyyən təkmilləşmələrə ehtiyac var. Dərsliklərə bəzi çalışmaların əlavə edilməsinə və bəzi çalışmaların miqdarının artırılmasını nəzərdə tutan dəyişiklər aparılmalıdır. Metodik ədəbiyyatda isə problem kifayət dərəcədə elmi əsaslar üzərində qurulmadığından, bu sahədəki işlərin məzmunu lazımi səviyyədə açılmadığından, inkişaf istiqamətləri dəqiq hərtərəfli müəyyənləşdirilmədiyindən məktəb təcrübəsində bir sıra nöqsanlara yol verilir. Uşaqların şifahi nitqinin xüsusiyyət-

lərinin dəqiq öyrənilməsi I sinifdə aparılacaq işlərin əsasını təşkil etməlidir.

**Məqalənin aktuallığı.** İbtidai siniflərdə Azərbaycan dili dərslərində şifahi nitqin inkişafında aparılan işlərin sistemli və məzmunlu təşkili üçün öyrənənlərin şifahi nitqinin xüsusiyyətləri dəqiq öyrənilməlidir. Təcrübə göstərir ki, bu sahədə kifayət qədər həm nəzəri, həm pedaqoji və psixoloji fikirlər söylənsə də yenə də kiçikyaşlı məktəblilərin şifahi nitqində bir sıra nöqsanlar var. Bu sahədə aparılan tədqiqat aktual hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, kiçikyaşlı öyrənənlərin şifahi nitqləri müşahidə olunmuş, öyrənilmiş, mövcud nöqsanlar və onların xarakteri aydınlaşdırılmış, problemin həll yolları göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti. Bakı: Azərnəşr, 1968.
2. Rəhimov A.N. Azərbaycan dilinin səmərəli təşkili (ibtidai siniflər üçün). Bakı: Maarif, 1986.
3. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, 2003.
4. Rəhimova S.A. İfadəli oxu dərslərində nitq inkişafı. Bakı, 2013.
5. Rəhimova S.A. Şagirdlərin nitqinin inkişafında müqayisə priyomundan istifadə. Bakı, 2018.
6. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları. Bakı: Maarif, 1978.
7. Kərimov Y.Ş. Azərbaycan dilindən metodik göstərişlər. Bakı: Maarif, 1985.

**С.М. Алиева**

## Дефекты речи у младших школьников и их характер

## Резюме

Для систематической и содержательной организации работы по развитию устной речи на уроках Азербайджанского языка в начальной школе необходимо внимательно изучить особенности устной речи учащихся. Опыт показывает, что хотя в этой области высказывается достаточно теоретических, педагогических и психологических взглядов, в устной речи младших школьников все же имеется недостатков.

В статье наблюдалась и изучалась устная речь учащихся и их особенности были выяснены. Были указаны пути решения данном проблемы.

**S.M. Aliyeva**

## Speech defects of young schoolchildren and their character

## Summary

The oral communication abilities of the learners need to be researched in detail to lead a contextual and systematic improvement of oral speech at the Azerbaijani language and classes in primary schools. It could be seen from the observations that there several weaknesses in the primary learners oral communication skills, despite there are sufficient examples of theoretical, practical and psychological experiences in this area.

In the article, the oral speech skills of the learners were checked, studied and existing weaknesses and their features were identified. The possible way of solutions was also given.

**Redaksiyaya daxil olub:** 21.08.2021